## Birinci dərs: Köməkçi məhsullar nədir?

- Köməkçi məhsullar insanların onlardan istifadə etmədən lazımi səviyyədə və ya ümumiyyətlə edə bilməyəcəkləri vəzifələri yerinə yetirmək üçün istifadə etdikləri məhsullardır.
- Köməkçi məhsullar uşaqlar və böyüklər tərəfindən istifadə edilə bilər.
- İnsanlara həyatlarının müxtəlif sahələrində, məsələn, düşünmək, ünsiyyət saxlamaq, eşitmək, görmək, hərəkət etmək və özünə qulluq etməkdə kömək edən bir çox köməkçi məhsul növü vardır.
- Bir çox insanlar ehtiyaclarından asılı olaraq köməkçi məhsulların birdən çox növündən istifadə edirlər.

## İkinci dərs: Köməkçi məhsulların təmin edilməsinə kimlər cəlb edilir?

- Bir çox insanın köməkçi məhsulların təmin edilməsində rolu var, o cümlədən:
    - Köməkçi məhsula ehtiyacı olan şəxs
    - Onların ailəsi və dostları
    - Köməkçi məhsullara ehtiyacı olan şəxsləri xidmətə yönləndirən insanlar
    - Təlim keçmiş xidmət təminatçıları
    - İcmadakı insanlar

## Üçüncü dərs: Köməkçi məhsullar necə təmin edilir

Köməkçi məhsulların təmin edilməsi 4 addımdan ibarətdir:




- Bu dörd addım insanların təhlükəsiz, müvafiq köməkçi məhsullarla təmin olunması, həmin məhsullardan istifadə etmək bacarığına malik olması və həmin məhsulların hələ də onların ehtiyaclarına cavab verdiyinə əmin olmaq üçün izləmə dəstəyi alması üçün kömək edir.
    - Məhsulu qəbul edən şəxsin (və lazım gəldikdə ailəsi və ya qulluq edən şəxsin) prosesin hər bir addımında aktiv iştirakçı olması çox vacibdir.

## Dördüncü dərs: Köməkçi məhsulların təmin edilməsində nəzərə alınmalı məqamlar

- Bəzi köməkçi məhsulların təmin edilməsi çox vaxt alır, digərləri isə tez bir vaxtda təmin oluna bilir. Bu, bir sıra amillərdən asılıdır, o cümlədən:
    - Köməkçi məhsulun nə qədər mürəkkəb (qarışıq) olması;
    - Şəxsin ehtiyacları və sağlamlıq vəziyyəti;
    - Şəxsin köməkçi məhsulu istifadə edəcəyi mühit;
    - Bu məhsuldan istifadə edəcək şəxsin nə dərəcədə təcrübəli olması.
- Hətta düzgün köməkçi məhsulla belə, insanlar tez-tez etmək istədiklərini edə bilməkdə maneələrlə üzləşirlər. Bu maneələrə aşağıdakılar aid edilə bilər:
    - Əlçatmaz bir mühit kimi fiziki maneələr;
    - Stiqma və ayrı-seçkilik;
    - Əlçatan məlumatların olmaması;
    - Dəstəkləyici siyasət və xidmətlərin olmaması.
- Köməkçi məhsullardan istifadə edən insanların başqaları ilə bərabər şəkildə iştirakını və etmək istədiklərini edə bilmələrini təmin etməkdə hər kəsin rolu var.